**SILLABUS**

| | | |
|---|---|---|
| **Ümumi məlumat** | **Fənnin adı, kodu, kreditlərin sayı** | **PHIL 101, Fəlsəfəyə giriş, 6 AKTS** |
| | **Departament** | Siyasi elmlər və Fəlsəfə |
| | **Proqram (bakalavr, magistr)** | Bakalavr |
| | **Tədris semestri** | 2024/2025-ci tədris ilinin payız semestri |
| | **Fənni tədris edən müəllim (lər)** | Ruslan Xəlilov |
| | **E-mail:** | ruslan.khalilov@khazar.org |
| | **Telefon:** | |
| | **Mühazirə otağı/Cədvəl** | Məhsəti k. 41(Neftçilər Kampusu),Çəmənzəminli k. 13(Nərimanov Kampusu).Mühazirə otağı dərs cədvəlinə əsasən təyin olunacaq. |
| | **Məsləhət saatları** | Razılaşdırılaraq təyin etmə ilə |
| **Prerekvizitlər** | yoxdur | |
| **Tədris dili** | Azərbaycan | |
| **Fənnin növü (məcburi, seçmə)** | Məcburi | |
| **Dərsliklər və əlavə ədəbiyyat** | **<u>Əsas</u>:**<br>1. Fəlsəfə (dərslik), Z. Hacıyev, Bakı, 2001<br>2. Fəlsəfi əlyazmalar(I hissə),S.Xəlilov,Bakı, 2023<br>3. Müasir Qərb fəlsəfəsi,F.İsmayılov,Bakı, 1999<br>4. Elm fəlsəfəsi,E.Hussein,Bakı, 2024<br>5. Введение в философию, И. Фролов, 2003<br>6. Всемирная история философий, Л. Ясперс, Наука, 2000<br>7. Felsefe tarihi, U.Eco,R.Fedriga, 2022<br>8. Philosophy in the Modern World, Anthony Kenny, 2007<br>9. Medieval Philosophy, Anthony Kenny, 2005<br>10. Ancient Philosophy, Anthony Kenny, 2004<br>**Əlavə:**<br>1.Antik fəlsəfə tarixi,A.Əlizadə,Bakı, 2024<br>2.История западной философии, Б. Рассел, 1946<br>3.Philosophical Analysis in the Twentieth Century, Scott Soames, 2003<br>**Qeyd:** Bu siyahıda olmayan əlavə materiallar həftəlik olaraq tələbələr üçün müəllim tərəfindən təmin olunacaq. | |
| **Kursun təsviri** | Fəlsəfəni dünya haqqında elm kimi, dünyanın dərk edilməsi üsulları haqqında bir sistem kimi, həmçinin insan ideyalarının sosial mənbələri haqqında bilik kimi qəbul etmək olar. Fəlsəfə mövcudat,mövcud olanlar haqqında elm olub,onları təsvir və izah edir,eləcə də baş verə biləcək hadisələri əvvəlcədən proqnozlaşdıra bilir. Mənəvi dəyərlər mövqeyindən çıxış edərək həyatın daha düzgün şəkildə qavranılmasına xidmət edir. | |
| **Kursun məqsədləri** | Bu fənnin tədrisi qarşısına aşağıdakı məqsədləri qoyur:<br>1. Fəlsəfi biliyin yaranması, inkişafı və onun əsas predmetinin müəyyən edilməsinin təhlil və müzakirə edilməsi. | |

<table>
<tr><td></td><td colspan="3">2. Fəlsəfənin və digər elmlərin qarşılıqlı əlaqə və münasibətlərinin təhlil və müzakirə edilməsi.<br>3. Fəlsəfə tarixində qərb və şərq sivilizasiyalarının yeri və rolunun təhlil və müzakirə edilməsi.<br>4. Fəlsəfə tarixində dövrləşmə; hər bir dövrün əsas ideyalarının və xarakterik xüsusiyyətlərinin təhlil və müzakirə edilməsi.<br>5. Müasir dövr qərb fəlsəfəsinin əsas cərəyanları və onların nümayəndələrinin fəlsəfi baxışlarının təhlil və müzakirə edilməsi.</td></tr>
<tr><td>Tədrisin (öyrənmənin) nəticələri</td><td colspan="3"><u>Gözlənilən nəticələr:</u><br>Fəlsəfəyə giriş dərsindən əsas gözlənilən nəticələr aşağıdakılardır:<br>Keçirilən hər bir dərsdə fəal şəkildə iştirak edən və kursu müvəffəqiyyətlə başa vuran tələbə,<br>1. Fəlsəfə və fəlsəfə tarixi haqqında geniş və zəruri biliklərə sahib olacaq (koqnitiv nəticə-biliklənmə, savadlanma).<br>2. Müstəqil təfəkkür tərzinə malik olaraq öz subyektiv fəlsəfi ideyalarını formalaşdıracaq (mental nəticə- yeni bacarıq qazanma).<br>3. Mənəvi və əxlaqi dəyərlərin təsiri altında daxilən kamilləşərək müstəqil fərd və şəxsiyyət kimi cəmiyyətdə gedən proseslərdə mütərəqqi şəkildə çıxış edəcək (mənəvi nəticə).</td></tr>
<tr><td rowspan="2">Tədris metodları</td><td>Mühazirə</td><td colspan="2">90 dəqiqə müddəti olan mühazirənin təxminən 50-60 dəqiqəsində tələbələr yeni mövzu ilə tanış ediləcəklər. Dərs izahı əsasən Power-point slaydları vasitəsilə baş tutacaq. Qalan vaxtda yeni mövzu ilə bağlı tələbələrlə qaranlıq qalan məsələlər müzakirə ediləcək.</td></tr>
<tr><td>Qrup müzakirəsi</td><td colspan="2">90 dəqiqə müddəti olan seminarda müxtəlif vasitələrlə (prezentasiya, sual-cavab, diskussiya, örnək çalışmalar və s.) öncəki həftə müzahirədə müəllim tərəfindən danışılmış mövzunun tələbələr tərəfindən müzakirəsi aparılacaq. Ona görə də seminarda iştirak etmədən öncə əvvəlcədən müəllim tərəfindən təyin olunmuş bütün materiallar oxunmalı, qeydlər aparılmalıdır. Seminarlar əsasən tələbələrin dərsi necə öyrəndiyini ölçmək, suallarını səsləndirmək, qarşılıqlı müzakirələr apararaq həm mövzu ilə bağlı biliklərini dərinləşdirmək, həm də müzakirə etikasını öyrənmək üçün vasitədir.</td></tr>
<tr><td rowspan="8">Qiymətləndirmə</td><td>Komponentləri</td><td>Tarix/son müddət</td><td>Faiz (%)</td></tr>
<tr><td>Davamiyyət</td><td></td><td>5</td></tr>
<tr><td>Fəallıq</td><td></td><td>5</td></tr>
<tr><td>Prezentasiya və ya esse</td><td></td><td>5</td></tr>
<tr><td>Quizlər</td><td></td><td>15</td></tr>
<tr><td>Aralıq imtahanı</td><td></td><td>30</td></tr>
<tr><td>Final imtahanı</td><td></td><td>40</td></tr>
<tr><td>Yekun</td><td></td><td>100</td></tr>
</table>

| | |
|---|---|
| **Qaydalar (Tədris siyasəti və davranış)** | **Esse haqqında**:<br>1. Esse mövzuları qabaqcadan veriləcəkdir.<br>2. Esselər ən gec, dekanlıq tərəfindən təyin olunmuş final imtahanı günündən 5 gün əvvəl verilməlidir. Gecikən esselər qəbul edilmir.<br>3. Esselərin tərtibatı belə olmalıdır.: şrift ölçüsü: 14, interval: 1, həcm: ən azı 5 səhifə. Tərtibatı göstərilmiş qaydada olmayan esselər bal itirəcəklər.<br>4. Esse hazırlayarkən əsas tələb-mövzuya uyğun olaraq sərbəst düşünmək, tədqiqatçı mövqeyində çıxış etmək, daha çox subyektiv fikirlərə üstünlük verilməsidir. Şablon xarakterli, ümumi, mövzudan kənar fikirlərə və xüsusən köçürülmə hallarına qətiyyən yol verilməməlidir. Bu hallar aşkar olunarsa, tələbəyə esseyə görə bal verilmir!<br>5. Esselərin müdafiəsi tələbi yoxdur. Ancaq istisna hal kimi, mübahisəli hallarda müəllim tərəfindən zəruri hesab edilə bilər.<br>**Qiymətləndirmə:**<br>**90-100 bal "A" (əla):** Essenin sualına tam və ətraflı cavab verilmiş olmalıdır. Müstəsna şəkildə axıcı və aydın yazılmış, yüksək tənqidi analiz aparılmış, müxtəlif arqumentlərdən istifadə edilmiş esse olmalıdır. Paraqraflar arasında sıx məna əlaqəsi və ardıcıllıq mövcud olmalıdır. Böyük qrammatik və orfoqrafik xətalardan uzaq olmalıdır.<br>**80-89 bal "B" (yaxşı):** Yaxşı strukturlanmış və planlaşdırılmış, esse sualına müxtəlif mənbələrdən də yararlanaraq düzgün cavab verməlidir. Esse sualının içərisindəki alt-sualların (sub-questions) hamısına cavab verməməsi, öz fikrinin müxtəlif arqumentlərlə daha çox əsaslandırmaq əvəzinə, yazılı mənbələrdən daha çox istifadə etməsi və zəif yazılı mənbələrdən istifadə etmək bu aralıqdakı esseni "əla" kateqoriyasına sala bilmir.<br>**70-79 bal "C" (orta və ya qənaətbəxş):** Esse sualı haqqında ümumi bir cavab qoyur, cavab sualla əlaqəlidir, ancaq kifayət qədər mənbədən yararlanmayıb və kifayət qədər nümunələr istifadə edilməyib. Verilən nümunələr isə analitik şəkildə izah edilməyib.<br>**60-69 bal "D" (kafi):** Esse sualını və ümumi mövzunu anlayan ancaq bunla bağlı çox az fakt və nümunə verən, detallı bilgi və araşdırmadan yoxsul esselərə verilən qiymətdir. İçində müxtəlif yanlış anlaşılmalar nəticəsində məna qopuqluğu mövcud olur.<br>**0-59 bal "F" (qeyri-kafi, belə fənnə görə heç bir kredit əldə olunmur):** Esse sualına cavab yoxdur. Esse mövzusuna ümumi baxışdan əlavə heç bir əlavə bilgi, nümunə, fakt yoxdur. Təməl materiallardan belə istifadə edilməyib və ya doğru şəkildə istifadə |

| | |
|---|---|
| | edilmədiyi üçün ciddi məna əlaqəsizlikləri və qopuqluqları mövcuddur.<br>**"IC" (Natamam).** Bu, yalnız 57-59 bal yığmış tələbələrə aiddir. Bu halda tələbələrə yenidən imtahan vermək üçün əlavə bir imkan verilir. Tələbə bunun üçün müəyyən olunmuş miqdarda ödəniş etməlidir. İmtahanı uğurla verdiləri halda onların nəticələri 60 bala tamamlanır. Lakin tələbə bu imkandan istifadə etməyə də bilər və həmin fənni, təhsil haqqını ödəməklə, yenidən götürüb oxuya bilər.<br><br>Xəzər universitetinin qiymətləndirmə sistemi ilə bağlı əlavə məlumat üçün:<br>http://www.khazar.org/az/menus/149/grading_policies_at_khazar_university<br><br>**Fəallıq:** Dərsin interaktiv qaydada keçirilməsi nəzərdə tutulur. Aktivliyin qiymətləndirilməsi üçün tələbələrin dərs müddətində həyata keçiriləcək diskussiyalarda, sual-cavablarda fəal iştirak etməsi, prezentasiya təqdimatı, keçirilən dərslər üzrə geniş araşdırmalar aparıb müzakirələrdə təqdim etməsi tələb olunur.<br><br>**Akademik dürüstlük:**<br>Akademik dürüstlük Xəzər Universitetinin imicinin saxlanılmasında mühüm rol oynayır. Aşağıdakı hərəkətlər ciddi akademik pozuntu nümunələri və bu sübut varsa, cərimə olunacaq: qadağandır<br>- plagiat<br>- icazəsiz digər şəxslərlə əməkdaşlıq<br>- saxtakarlıq, icazəsiz digər mövzunun təqdim edilməsi<br><br>**Plagiat haqqında:**<br>Plagiat digər insanların işlərinin istinad olunmadan istifadə edilməsidir. Plagiat edən və onları plagiat materialları ilə təmin edən tələbələr tapşırığa görə avtomatik sıfır (0) alacaqlar. Tələbələr esse mətnində başqalarının söz və haşiyəsində istifadə edərkən mütləq istinadlar göstərməlidirlər.<br><br>**1) Quiz haqqında**<br>• Quizlər yazılı, açıq suallar şəklində keçiriləcək.<br>• Hər biri 7,5 bal olmaqla ümumilikdə yekun qiymətin 15%-ni təşkil edəcək.<br>• Dərs həftəsinin 4-cü və 13-cü həftələrində baş tutacaq.<br>• Quizlərdə hansı mövzulardan suallar olacağı və nə qədər sual olacağı əvvəlcədən tələbələrə bildiriləcək. |

| | |
|---|---|
| | **Dərsə davamiyyət**<br><br>Tələbələr Xəzər Universitetinin davamiyyət qaydalarına riayət etməlidirlər. Onlar xəstə və ya rəsmi icazə aldığı (dekanlıq tərəfindən təsdiq olunmuş formada) hallardan başqa bütün dərslərdə iştirak etməlidirlər. Hər üzrsüz səbəbdən buraxılan dərs saatı davamiyyətə ayrılan ballardan çıxarılacaq (hər 2 saat – 0,5 bal).<br>Üzürsüz buraxılan sinif saatların sayı 25%-dan çox olduqda tələbə yalnız fakültə dekanının razılığı ilə imtahana buraxila bilər. |

**Cədvəl (dəyişdirilə bilər)**

| **Həftə** | **Tarix (təqribi planlaşdırılmış)** | **Fənnin mövzuları** | **Dərslik/Tapşırıqlar** |
|---|---|---|---|
| 1. | 16.09.2024<br>20.09.2024 | **Sillabusun presentasiyası.**<br>**Fəlsəfəyə giriş**<br>Fəlsəfə və onun predmeti.<br>Fəlsəfi ideyaların yaranması və inkişafı.<br>Fəlsəfəyəqədərki dünyagörüşü formaları.<br>Mifik təfəkkürdən fəlsəfi ideyalara keçid dövrü | Fəlsəfə,Z.Hacıyev,səh.5-36<br>Fəlsəfi əlyazmalar,S.Xəlilov,səh.7-31<br>Mühazirə qeydləri |
| 2. | 23.09.2024<br>27.09.2024 | **Qədim yunan fəlsəfəsinin yaranması**<br><br>Antik fəlsəfə və onun meydana gəlməsi.<br>Antik fəlsəfənin inkişafında əsas mərhələlər<br>Sokrataqədərki mərhələ | Fəlsəfə, Z.Hacıyev,səh.36-45<br>Antik fəlsəfə tarixi, A.Əlizadə,səh.119-161<br>Mühazirə qeydləri |
| 3. | 30.09.2024<br>04.10.2024 | **Antik yunan fəlsəfəsinin klassik mərhələsi**<br>Sokratın müdriklik fəlsəfəsi<br>Platon və onun dialoqları | |
| 4. | 07.11.2024<br>11.10.2024 | **Aristotel fəlsəfəsi**<br>Aristotelin metafizikası<br>Aristotelin məntiqi və onun izah olunma üsulları<br>Aristotelin sosial fəlsəfi fikirləri | Quiz (7,5%) |
| 5. | 14.10.2024<br>18.10.2024 | **Orta əsrlər qərb fəlsəfəsi**<br>Orta əsrlər qərb fəlsəfəsinin xarakterik xüsusiyyətləri.<br>Əsas istiqamətlər və mərhələlər.Patristika və sxolastika fəlsəfəsi | Prezentasiya (prezentasiyada göstərilən müvəffəqiyyət fəallıq balı daxilində qiymətləndiriləcək)<br>Fəlsəfə tarixi,M.Zeynalov,səh.183-219<br>Mühazirə qeydləri |

| | | | |
|---|---|---|---|
| | | | Medieval philosophy, A.Kenny,səh.12-31 |
| 6. | 21.10.2024<br>25.10.2024 | **İntibah dövrünün fəlsəfəsi**<br>İntibahda humanizm anlayışı<br>Naturfəlsəfə(təbiətşünaslıq konsepsiyaları)<br>İslahatçılıq hərəkatı və sosial Nəzəriyyələr | Fəlsəfə,Z.Hacıyev,səh.65-69<br>Mühazirə qeydləri<br>Fəlsəfə tarixi,M.Zeynalov,səh.219-251 |
| 7. | 28.10.2024<br>01.11.2024 | **Şərqin intibah dövrü fəlsəfəsi**<br>Şərq peripatetizm fəlsəfəsi və onun əsas xarakterik xüsusiyyətləri<br>Bəhmənyar fəlsəfəsi<br>İbn Sina və onun elmi fəlsəfi ideyaları<br>N.Tusinin əxlaq fəlsəfəsi | Şərq fəlsəfəsi tarixi,Z.Məmmədov,səh.4-25,51-75<br>Mühazirə qeydləri |
| 8 | 04.11.2024<br>08.11.2024 | **XVII-XVIII əsr Qərbi Avropa fəlsəfəsi**<br>XVII əsr Qərbi Avropa fəlsəfəsinin formalaşmasında əsas ideya mərkəzləri<br>Yeni dövr ingilis fəlsəfəsi və onun əsas nümayəndələri<br>Fransız maarifçilik dövrü fəlsəfəsi | Prezentasiya (prezentasiyada göstərilən müvəffəqiyyət fəallıq balı daxilində qiymətləndiriləcək)<br>Fəlsəfə,Z.Hacıyev,səh.69-77<br>Fəlsəfə tarixi,M.Zeynalov,səh.251-291<br>Mühazirə qeydləri |
| 9 | 11.11.2024<br>15.11.2024 | **Aralıq imtahanı** | |
| 10 | 18.11.2024<br>22.11.2024 | **Klassik alman fəlsəfəsi**<br>Klassik alman fəlsəfəsində əsas istiqamətlər.Kantın fəlsəfəsi. Hegelin fəlsəfəsi | History of philosophy Western Europe, B.Rassel,səh.186-231<br>Fəlsəfə tarixi, M.Zeynalov,336-380<br>Mühazirə qeydləri |
| 11 | 25.11.2024<br>29.11.2024 | **Müasir Qərb fəlsəfəsi**<br>Müasir qərb fəlsəfəsinin yaranmasında ictimai-siyasi mühitin rolu<br>Elmi texniki inqilablar və fəlsəfə<br>Əsas xarakterik xüsusiyyətlər və istiqamətlər | Müasir qərb fəlsəfəsi, F.İsmayılov,səh.5-304<br>Philosophy in the Modern World, A.Kenny,səh.4-15<br>Fəlsəfə tarixi, M.Zeynalov,səh.447-517 |
| 12 | 02.12.2024<br>06.12.2024 | **Pozitivizm və praqmatizm**<br>Pozitivizm nədir?<br>Pozitivizmin əsas nümayəndələri<br>Praqmatizm və onun əsas mahiyyəti | Prezentasiya (prezentasiyada göstərilən müvəffəqiyyət fəallıq balı daxilində qiymətləndiriləcək) |
| 13 | 09.12.2024 | **Həyat fəlsəfəsi və ekzistensializm** | |

| | | | |
|---|---|---|---|
| | 13.12.2024 | Həyat fəlsəfəsi nədir?<br>Sartrın mövcudluq fəlsəfəsi<br>Kamyu fəlsəfəsində “Azad insan” anlayışı | |
| 14 | 16.12.2024<br>20.12.2024 | **İrrasionalizm**<br>İrrasionalizm nədir?<br>Irrasionalizmlə rasionalizmin əsas fərqləri<br>Şopenhauer və onun idrak nəzəriyyəsi | Quiz (7,5 %) |
| 15 | 23.12.2024<br>28.12.2024 | **İslam fəlsəfəsi**<br>İslam dininin mahiyyəti və əsas ideyaları<br>Sufizm fəlsəfəsi<br>İslamda əxlaq anlayışı<br>**Ümumi təkrar və diskussiya** | Təriqət ədəbiyyatı:Sufizm,Hürufizm, Y.Babayev,səh.5-52,77-98<br><br>**Tapşırıq: Essenin təhvil verilməsi** |
| **Final imtahanı** | | | |